**"BARNİ İLƏ NAĞILLAR OXU VƏ MƏKTƏBƏ HAZIRLAŞ"
REKLAM AKSİYASININ AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ
KEÇİRİLMƏ QAYDALARI VƏ İŞTİRAK ŞƏRTLƏRİ
(BUNDAN SONRA MƏTN ÜZRƏ – "AKSİYA").**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Mini oyunlar" şərti adlı Reklam Aksiyası Azərbaycan Respublikasının ərazisində keçirilir və Aksiyanın təşkilatçısı tərəfindən "Барни" əmtəə nişanı altında istehsal olunan və (və ya) satılan Məhsulların təbliğinə yönəlib. Aksiya potensial alıcıların diqqətini "Барни" əmtəə nişanı altında olan Məhsullara cəlb etmək məqsədilə həyata keçirilir.
1.2. Aksiya lotereya deyildir.
1.3. Aksiyanın keçiriləcəyi ərazi – Azərbaycan Respublikası.
1.4. Aksiya Azərbaycan Respublikası ərazisində yerləşən bütün mağazalarda keçirilir.
1.5. Aksiyanın rəsmi keçirilmə qaydaları və iştirak şərtləri (bundan sonra "Qaydalar") az.barni.org saytında (bundan sonra – "Sayt") yerləşdirilmişdir.
1.6. Aksiya qaydaları ilə Saytda tanış ola bilərsiniz.

## 2. AKSİYADA İŞTİRAK EDƏN MƏHSULLARIN ADI

- БАРНИ МЕДВЕЖОНОК şokoladlı içlik ilə, 20 x 150 q;
- БАРНИ МЕДВЕЖОНОК südlü içlik ilə, 20 x 150 q;
- БАРНИ МЕДВЕЖОНОК bananlı içlik ilə, 20 x 150 q;
- БАРНИ МЕДВЕЖОНОК qaysılı içlik ilə, 20 x 150 г;
- БАРНИ МЕДВЕЖОНОК "Avtobus" şokoladlı içlik ilə

(bundan sonra – "Məhsul").

## 3. AKSİYANIN TƏŞKİLATÇISI VƏ OPERATORLARI

3.1. Aksiyanın təşkilatçısı "Мон'дэлис Казахстан" MMC-dir (mətn boyunca bundan sonra – "Təşkilatçı"). Ünvan: Qazaxıstan, Almatı şəhəri, 050012, Tole bi küçəsi, 101
3.2. Aksiyanın operatoru "PeopleBrand IQ" MMC-dir (mətn boyunca bundan sonra – "Aksiyanın operatoru"). Ünvan: Azərbaycan, AZ 1065, Bakı şəhəri, Yasamal rayonu, M.H.Naxçıvani küçəsi 22, 18-ci mərtəbə.
3.2.1. Aksiyanın operatoru aşağıdakı funksiyaları yerinə yetirir:
– Mükafatların qaliblərə çatdırılmasına nəzarət;
– Aksiyanın keçirilməsinin və mükafatların verilməsdinin sənədləşdirilməsi;
– İştirakçılar və qaliblərlə ünsiyyət;
– Qaliblərin və Aksiya Qaydaları ilə nəzərdə tutulmuş Mükafatların sahiblərinin müəyyən edilməsi;
– "Барни" qablaşdırmasının skanlarının moderasiyası;
– 6.1.2-ci bəndinə uyğun olaraq, zəmanətli mükafatın qaliblərə təqdim edilməsi.

## 4. AKSİYA İŞTİRAKÇILARI

4.1. Aksiyada yetkinlik yaşına çatmış (18 yaş və yuxarı) fəaliyyət qabiliyyətli Azərbaycan vətəndaşları və Azərbaycan Respublikasında yaşamaq və ya müvəqqəti yaşamaq üçün icazəsi olan və Azərbaycan Respublikasının ərazisində daimi yaşayan şəxslər iştirak edə bilərlər.
4.2. Aşağıdakı şəxslərin Aksiyada iştirakına icazə verilmir: Azərbaycan Respublikasının yetkinlik yaşına çatmamış vətəndaşları, Aksiya Təşkilatçısının/Operatorlarının əməkdaşları, müəyyən edilmiş qaydada Aksiyanın Təşkilatçısı/Operatoru ilə əlaqəli kimi tanınan və Aksiyanın təşkili və (və ya) keçirilməsi ilə əlaqəli olan şəxslər, habelə onların ailə üzvləri, vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikasında yaşamaq üçün icazəsi olmayan digər dövlətlərin vətəndaşları.

## 5. AKSİYANIN KEÇİRİLMƏ MÜDDƏTİ

5.1. Aksiyanın ümumi müddəti 01 sentyabr 2024-cü il saat 00:00:01-dən (Bakı vaxtı ilə) 31 oktyabr 2024-cü il (daxil olmaqla) 23:59:59-a (Bakı vaxtı ilə) qədərdir. Bu Qaydalarda müəyyən edilmiş bütün müddətlər Bakı vaxtı ilə hesablanır.
5.2. İştirakçılar tərəfindən qablaşdırmaların skan edilməsi üçün son tarix: 01 sentyabr 2024-cü il saat 00:00:01-dən (Bakı vaxtı ilə) 31 oktyabr 2024-cü il (daxil olmaqla) saat 23:59:59-dək (bundan sonra – "Qablaşdırmaların skan edilməsi müddəti").
5.3. Qaliblərin müəyyən edilməsi müddəti: 08 sentyabr 2024-cü ildən 1 noyabr 2024-cü ilədək (daxil olmaqla).

5.4. Qaliblərə Mükafatların təqdim edilməsi üçün son müddət: 10 sentyabr 2024-cü ildən 30 noyabr 2024-cü ilədək (daxil olmaqla).
5.5. Aksiya 9 həftə davam edir.
5.6. Dəqiq siyahı və Aksiya həftələrinin tarixləri 8.5-ci bənddə göstərilmişdir

**6. AKSİYANIN MÜKAFAT FONDUNUN TƏRKİBİ VƏ HƏCMİ**
Aksiyanın mükafat fondu Təşkilatçının vəsaitləri hesabına formalaşır və aşağıdakı mükafatlardan (bundan sonra – "Mükafatlar") ibarətdir.

**6.1. Zəmanətli mükafatlar:**
6.1.1. 2 ədəd Məhsulun qablaşdırmasının əks olunduğu fotoşəkli göndərən hər kəsə bütün Aksiya müddətində Azərbaycan Respublikası müəlliflərinə məxsus təxminən 300 (üç yüz) ədəd kitabdan biri; Zəmanətli hədiyyələri az.barni.org saytında qeydiyyatdan keçən və 2 Məhsulun qablaşdırmasının əks olunduğu fotoşəkli göndərən ilk 300 iştirakçı əldə edəcək.

**6.2. Qiymətli mükafatlar:**
6.2.1. Aksiyanın bütün müddəti ərzində 90 (doxsan) ədəd olmaqla, "Lego" konstruktorları (bundan sonra – "Həftəlik Mükafat") – hər həftə reytinqin ən çox xal toplayan ilk 10 iştirakçısına.

**7. AKSİYADA İŞTİRAK QAYDALARI**
7.1. Aksiyanın iştirakçısı (bundan sonra – "İştirakçı") olmaq və Mükafat almaq imkanını əldə etmək üçün Aksiya müddəti ərzində aşağıdakı addımlar atılmalıdır:
- Azərbaycan Respublikasının ərazisində istənilən mağazadan bu Qaydaların 2-ci bəndində göstərilən "Барни" əmtəə nişanına aid, ən azı, 1 (bir) ədəd Məhsul əldə etmək.
- Qablaşdırmanın fotoşəklini Aksiyanın az.barni.org saytında yükləmək.
- 1 (bir) ədəd Məhsulu ehtiva edən fotoşəkil yükləndikdə iştirakçı "Барни" nağıllarına giriş imkanı əldə edir.
- 2 (iki) ədəd Məhsulu ehtiva edən fotoşəkil yükləndikdə ilk 300 iştirakçı Zəmanətli Mükafat əldə edir.
- Ad, soyad, elektron poçt və telefon nömrəni qeyd etməklə qısa qeydiyyatdan keçmək.
- İştirakçının şəxsi kabinetinə giriş əldə etmək.
- "Барни" nağıllarını oxumaq.
- Viktorinanın suallarına cavab vermək.
7.2. İştirakçı hər Məhsul növünü yalnız 1 (bir) dəfə skan edə bilər.
7.3. Aksiya iştirakçısı az.barni.org saytında yalnız bir hesabı qeydiyyatdan keçirə bilər.
7.4. Bir Aksiya İştirakçısının bir neçə telefon nömrəsi və elektron poçt ünvanından istifadə etməklə az.barni.org saytında bir neçə dəfə qeydiyyatdan keçməsinə icazə verilmir. Aksiya İştirakçısının belə hərəkəti hazırkı Aksiya Qaydalarının pozulması kimi şərh olunur.
7.5. Təşkilatçı/Operator tərəfindən çoxsaylı qeydiyyat faktı müəyyən edilərsə, Təşkilatçı/Operator İştirakçıya mükafatın verilməsindən imtina etmək və onu Aksiyada iştirakdan kənarlaşdırmaq hüququna malikdir.
7.6. Operator qablaşdırmaların qanuniliyini yoxlamaq, habelə Aksiya İştirakçısının digər Aksiya Qaydalarına riayət etdiyini təsdiqləmək üçün zəruri olan sənədlər və məlumatları Aksiya iştirakçılarından tələb etmək hüququna malikdir.
7.7. Aksiya İştirakçısı Operatordan müvafiq sorğunu aldığı gündən etibarən 72 (yetmiş iki) saat ərzində mdlz.consumer@mdlz.com elektron poçtuna məktub göndərməklə aşağıdakı sənədlər və məlumatları təqdim etməyi öhdəsinə götürür:
- Qalibin tam adı, doğum tarixi haqqında məlumatı özündə əks etdirən, seriya və nömrəsi aydın görünən şəxsiyyət vəsiqəsinin skan edilmiş surətini.
- Operatorun tələbi ilə digər məlumatları.
7.8. Bu sənədlərin bütün surətləri aydın, hərf və rəqəmləri isə oxuna bilən olmalıdır, pasport səhifələrinin surətlərində soyadı, adı, ata adı, doğum tarixi, doğum yeri, pasportun seriya və nömrəsi haqqında məlumatlar əks olunmuş olmalıdır.
7.9. Operator Aksiya İştirakçısından sənədlər və məlumatları aldıqdan sonra onları 5 (beş) iş günü ərzində nəzərdən keçirir. Təqdim edilmiş sənəd və məlumatların yoxlanılmasının nəticələrinə əsasən, Operator tələb olunan sənədləri təqdim etmək üçün İştirakçının müraciətini Aksiyada iştirak etmək üçün təsdiq və ya ləğv etmək hüququna malikdir.
7.10. Aksiya İştirakçısı göstərilən müddət ərzində tələb olunan məlumatları təqdim etmədiyi halda, əlavə sənədlər və məlumatların tələb edilməsi üçün əsas olan Aksiya İştirakçısının müraciəti ləğv edilir və o, Aksiyada iştiraka buraxılmır.
7.11. Validasiyadan keçməmiş müraciətlərin (qablaşdırmaların), habelə ləğv edilmiş müraciətlərin (qablaşdırmaların) Aksiyada yenidən iştirakına icazə verilmir.

7.12. Müraciət zamanı və İştirakçı tərəfindən təqdim edilən məlumat və sənədlərin yoxlanışı zamanı Aksiya İştirakçı tərəfindən hazırkı Qaydalarının pozulması faktı aşkar edilərsə, Operator belə bir Aksiya İştirakçısını Aksiyada sonrakı iştirakdan kənarlaşdırmaq və Mükafat verməkdən imtina etmək hüququna malikdir.
7.13. İştirakçı hər bir Mükafat növünü yalnız 1 (bir) dəfə qazana bilər.

**8. MÜKAFAT SAHİBLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ**
8.1. Zəmanətli hədiyyələrin qalibləri 01 sentyabr 2024-cü il tarixindən 31 oktyabr 2024-cü il tarixinədək əhatə edən müraciətlərin qəbulu müddətində bu Qaydalara uyğun olaraq, Saytda qeydiyyatdan keçmiş və 2 (iki) ədəd məhsulun təsvirini ehtiva edən fotoşəkli göndərmiş bütün İştirakçılar arasında müəyyən edilir.
8.2. Qiymətli Mükafatların Qalibləri aşağıdakı şərtləri yerinə yetirən İLK 90 iştirakçı arasında müəyyən edilir:
8.2.1. saytdan qeydiyyatdan keçənlər
8.2.2. 3 (üç) ədəd məhsulun təsvirini ehtiva edən fotoşəkli yükləyənlər
8.2.3. viktorinanın bütün suallarına düzgün cavab verənlər

Mükafat qaliblərinin siyahısı Aksiyanın az.barni.org saytında 31 oktyabr 2024-cü il (daxil olmaqla) tarixinədək yerləşdirilir.

**9. MÜKAFATLARIN VERİLMƏSİ QAYDASI**
9.1. Bu qaydaların 5.4-cü bəndində göstərilən müddət ərzində Operator Aksiya Mükafatlarını göndərilməsini həyata keçirir.
9.2. Həftəlik və Aylıq Mükafatlar Operatorun ofisində və ya Azərbaycan Respublikasının kuryer xidməti vasitəsilə əlbəəl təqdim edilir.
9.3. Qalib Mükafatı almaq üçün aşağıdakı sənədlər və məlumatları 72 saat ərzində support@barni.org elektron poçtuna göndərərək Operatora təqdim etməyi öhdəsinə götürür:
- Aksiyanın az.barni.org saytında qeydiyyat zamanı göstərilən və Operatorun Qaliblə əlaqə saxlaya biləcəyi mobil telefon nömrəsini təsdiqləmək;
- Mükafatın çatdırılma ünvanını göstərmək;
- sənədin nömrəsi, FİN, SAA, doğum tarixi və etibarlılıq müddəti haqqında məlumatı ehtiva edən şəxsiyyət vəsiqəsinin skan edilmiş surətini;
- Qalib tərəfindən imzalanmış Mükafatın təhvil-təslim aktını;
- Qalibə Mükafatların təqdim edilməsi üçün Operatorun tələbi ilə lazım olan digər məlumatı.
9.4. Təşkilatçı bildirir ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, Operator Mükafatlara münasibətdə fərdi gəlir vergisinin ödənilməsi üzrə vergi agenti qismində çıxış edir.
9.5. Qalib Mükafatın çatdırılması üçün tələb olunan məlumatları, telefon nömrəsini Aksiyanın internet saytındakı şəxsi kabinetində düzgün göstərmədiyi və ya bu Qaydaların 9.3-cü bəndinə uyğun olaraq, sənədləri 72 saat ərzində təqdim etmədiyi halda, Operator Mükafatı Qalibə təqdim etməmək və öz mülahizəsinə əsasən, onun üzərində sərəncam vermək hüququnu özündə saxlayır.
9.6. Mükafatlar pul ekvivalenti ilə verilə bilməz.
9.7. Mükafatların xarici görünüşü onların televiziya və internetdə yerləşdirilən reklam və informasiya materiallarındakı təsvirlərindən fərqlənə bilər.
9.8. Təşkilatçının mükafatların keyfiyyəti ilə bağlı öhdəlikləri məhsul istehsalçıları tərəfindən verilən zəmanətlərlə məhdudlaşır. Keyfiyyətə dair iddialar birbaşa istehsalçılara təqdim edilməlidir.
9.9. Hər hansı bir səbəbdən hər hansı mükafat Qalibinə təqdim edilmədikdə, habelə İştirakçılar və ya Qaliblər bu Qaydalarda nəzərdə tutulmuş bütün zəruri sənədlər və məlumatları Təşkilatçının müəyyən etdiyi müddətdə təqdim etmədikdə Təşkilatçı Mükafat üçün müraciət edən Qalibi öz mülahizəsi ilə əvəz etmək və ya müvafiq mükafatı ləğv etmək hüququna malikdir.

**10. DİGƏR ŞƏRTLƏR**
10.1. Aksiya Təşkilatçısı dəyişikliklərin qüvvəyə minməsindən üç təqvim günü əvvəl Saytda Aksiya iştirakçılarına məlumat verərək Aksiyanın bütün müddəti ərzində bu Aksiyanın şərtlərini dəyişdirmək hüququna malikdir.
10.2. Aksiya Təşkilatçısının tapşırığı ilə Aksiya Təşkilatçısı və (və ya) Operatorlar müəyyən bir şəxs tərəfindən təqdim edilən məlumatın həqiqətə uyğun olmadığı aşkar edildikdə və (və ya) başqa şəkildə Aksiya İştirakçısı Aksiya Qaydalarının şərtlərinə əməl etmədikdə həmin şəxsə belə Mükafat verməkdən imtina etmək hüququna malikdirlər.
10.3. Aksiya Təşkilatçısının tapşırığı ilə Təşkilatçı və (və ya) Operator, öz mülahizəsinə əsasən, iştirak üçün müraciəti etibarsız hesab edə, habelə bu Aksiyada iştirak etmək üçün müraciət prosesini və ya Aksiyanın keçirilməsini saxtalaşdıran və ya istənilən saxtalaşdırmadan faydalanan, yaxud bu Qaydaları pozan hərəkətlər edən, destruktiv bir şəkildə hərəkət edən və ya bu Aksiya ilə əlaqəli ola biləcək hər hansı bir şəxsi təqib etmək, təhqir etmək, hədələmək və narahat etmək niyyəti ilə hərəkət edən istənilən şəxsə bu Aksiyada iştirakını aşağıdakı hərəkətlər daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, davam etdirməsini qadağan edə bilərvə ya:

10.4. Aksiya Təşkilatçısının/Operatorunun İştirakçının qeydiyyat zamanı təqdim etdiyi məlumatların yanlış, natamam, səhv və ya qeyri-dəqiq olması ilə bağlı hər hansı fərziyyələri olduqda;
10.5. Aksiya Təşkilatçısının/Operatorunun İştirakçının fırıldaqçılıq hərəkətləri, aldatma, rüşvətxorluq və ya maliyyə fırıldaqlarında iştirak etdiyinə, səsvermədə iştirak edən şəxslərə maddi fayda təklif etdiyinə, o cümlədən çoxsaylı qeydiyyatdan keçdiyinə və həm Saytın özü, həm də İştirakçıları üçün müxtəlif növ və dərəcədə mənfi nəticələrə səbəb olmuş və ya nəticələnə biləcək Saytda dinamik və digər manipulyasiyalardan istifadə etdiyinə dair şübhələri və ya fərz etməyə səbəbləri olduqda;
10.6. İştirakçı bu Qaydaları pozaraq hərəkət edərsə, Operator Aksiya İştirakçılarından Aksiya Qaydalarına uyğun hərəkət etdiyini təsdiqləmək üçün zəruri olan sənəd və məlumatların təqdim edilməsini tələb etmək hüququna malikdir.
Aksiya İştirakçısı göstərilən müddətdə lazımi məlumatları təqdim etmədikdə əlavə sənədlər və məlumatların tələb edilməsi üçün əsas olan Aksiya İştirakçısının müraciəti ləğv edilir və Aksiyada iştiraka buraxılmır.
10.7. Sorğu zamanı və Aksiya İştirakçısının bu Aksiya Qaydalarını pozduğuna dair Aksiya İştirakçısı məlumat və sənədlər təqdim edərsə, Operatorlar belə Aksiya İştirakçısını Aksiyada gələcəkdə iştirakdan kənarlaşdırmaq və Mükafat verməkdən imtina etmək hüququna malikdirlər.
10.8. Əgər hər hansı səbəbdən, habelə kompüter viruslarına yoluxma, internet nasazlıqları, qüsurlar, manipulyasiyalar, icazəsiz müdaxilə, saxtakarlıq, texniki nasazlıqlar və ya Təşkilatçı tərəfindən idarə olunmayan, Aksiyanın icrası, təhlükəsizliyi, dürüstlüyü, bütövlüyü və ya düzgün aparılmasını təhrif edən və ya buna təsir edən hər hansı səbəb daxil olmaqla, Aksiya planlaşdırıldığı kimi keçmirsə, Təşkilatçı yalnız öz mülahizəsinə əsasən, Aksiyaya xitam verə, Aksiyanı dayandıra, dəyişdirə və ya müvəqqəti dayandıra bilər və ya iştirak üçün aktivləşdirlmiş müraciətləri etibarsız hesab edə bilər.
10.9. Təşkilatçı Aksiyanın keçirilməsinə aidiyyəti olmayan Aksiya İştirakçıları ilə yazılı danışıqlara və ya digər əlaqəyə girməmək hüququna malikdir.
10.10. Aksiyanın Təşkilatçısı/Operatoru İştirakçıların Aksiyanın keçirilmə qaydaları və iştirak şərtləri ilə tanış olmamalarına, habelə Aksiyanın nəticələri ilə tanış olmamalarına; o cümlədən poçt xidmətinin, rabitə təşkilatlarının təqsiri ilə Aksiya zamanı istifadə olunan internet və (və ya) rabitə kanallarında texniki problemlər və (və ya) saxtakarlıq nəticəsində iştirakçılardan elektron poçt, zəng, faks və (və ya) elektron məktubların alınmamasına; Mükafatları almaq üçün zəruri olan sənədlərin və (və ya) məlumatların İştirakçılardan alınmamasına (vaxtında alınmamasına); Aksiyanın keçirilməsi və Mükafatların verilməsi məqsədilə iştirakçılardan natamam və (və ya) yanlış əlaqə və (və ya) digər məlumatların alınmasına görə məsuliyyət daşımır;
10.11. Azərbaycan qanunvericiliyi ilə müəyyən edilmiş fors-major hallar baş verdikdə Təşkilatçı bu Qaydalarda göstərilən öhdəliklərə görə məsuliyyət daşımır.
10.12. Bu Aksiya ilə bağlı bütün mübahisəli məsələlər Azərbaycanın mövcud qanunvericiliyi əsasında tənzimlənir.

**11. FƏRDİ MƏLUMATLAR**
11.1. Aksiyada iştirak edən şəxslər (bundan sonra mətn üzrə – "Fərdi məlumat subyektləri") öz fərdi məlumatlarını təqdim etməlidirlər. Təqdim olunan məlumatlar fərdi məlumatlara aiddir və Azərbaycanın mövcud qanunvericiliyinə uyğun olaraq mühafizə olunur.
11.2. Fərdi məlumatların toplanılmasının məqsədləri:
– Fərdi məlumatlar İştirakçılara mükafatların, İştirakçılara uduşlar haqqında mesajların göndərilməsi, Təşkilatçının məhsulları və onun keçirdiyi tədbirlər, reklam təklifləri haqqında məlumatların göndərilməsi, habelə marketinq təhlilinin aparılması və statistik məlumatların hazırlanması məqsədilə, habelə Azərbaycan qanunvericiliyinə uyğun olaraq, zəruri olan digər məqsədlər üçün toplanılır.
11.3. Fərdi məlumat subyektlərinin razılığı ilə əldə edilən fərdi məlumatlar Aksiya Təşkilatçısının tapşırığı ilə operator və digər üçüncü şəxslər tərəfindən Azərbaycan ərazisində yerləşən xüsusi mühafizə olunan məlumat bazalarına daxil edilir.
11.5. Fərdi məlumatların işlənməsi aşağıdakı üsullarla həyata keçirilə bilər: toplama, saxlama, yığım, sistemləşdirmə, dəqiqləşdirmə (yeniləmə, dəyişiklik), istifadə, bloklama, silmə və məhv etmə.
11.6. Fərdi məlumatların işlənməsi müddəti: Aksiyanın keçirilmə müddəti, habelə onun başa çatdığı andan etibarən bir il.
11.7. Fərdi məlumat subyektinin öz fərdi məlumatlarına daxil olmaq hüququ:
Fərdi məlumatların subyekti Operator haqqında, onların yerləşdiyi yer haqqında, Operatorun müvafiq fərdi məlumat subyekti ilə bağlı şəxsi məlumatlara malik olub-olmaması haqqında məlumat almaq, habelə bu cür fərdi məlumatlarla həm yazılı şəkildə (fərdi məlumat subyektinin və ya onun qanuni nümayəndəsinin şəxsiyyətini təsdiq edən əsas sənədin nömrəsini, göstərilən sənədin verildiyi tarix və onu verən orqan haqqında məlumatları), habelə fərdi məlumat subyektinin və ya onun qanuni nümayəndəsinin əl ilə imzasını ehtiva edən müvafiq sorğu əsasında tanış olmaq hüququna malikdir.
11.9. Fərdi məlumatların subyekti Aksiyanın adını, öz adını, soyadını, atasının adını, yaşını və şəhərini, o cümlədən İştirakçının Aksiyada iştirak etmək üçün təqdim etdiyi qeydiyyat məlumatlarını ehtiva edən rəsmi müraciəti Aksiyanın Fərdi Məlumat Operatoruna göndərməklə öz razılığını geri götürmək hüququna malikdir.

11.10. Bu Qaydalarda nəzərdə tutulmayan bütün məsələlərdə Təşkilatçı və İştirakçılar Azərbaycanın mövcud qanunvericiliyini rəhbər tuturlar.